## İlahə İbrahimifərd

### Tut Ağacı

Qədim ağacda, tuta bax, tuta
Onun dadına, çətin, dad çata

Tutumuz bu il nə yaman çoxdu
Doşab düzəldən nənələr yoxdu

Tökülür yerə, qara, qirmizi
Doydurur bu tut, ördəyi - qazı

Tut ağacları, böyük bir bağdı
Bir yanı dərya, bir yanı dağdı

Tez gəlin, silkələyim ağacı
Siz də bir çadra tutun ay bacı

Sən çox möhtəşəmsən, tut ağacı
Yayda sərin kölgən can əlacı

Əcəb yazın ən gözəl anıdır
Bu tut min bir dərdin dərmanıdır

Doşablar şahı, tut doşabı
Gülablardan, qızıl gül gülabı